**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№345/4** **30 iyun 2022-ci il**

**“Auditor fəaliyyəti sahəsində haqsız rəqabət üzrə daxil olan sənədlərin dövriyyəsi” barədə**

Auditor fəaliyyətində haqsız rəqabətin aradan qaldırılması və səmərəliliyin yüksəldilməsi, göstərilən auditor xidmətlərinin keyfiyyətinin artırılması, dempinq hallarının aradan qaldırılması, müstəqil auditə ictimai etimadın yüksəldilməsi və auditor peşəsinin cəmiyyətdəki nüfuzunun artırılması məqsədilə bu sahədə Türkiyə təcrübəsindən yararlanmaqla Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsi (R.Cəfərli) və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə Komitə (Q.Əhmədov) tərəfindən hazırlanmış “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət üzrə daxil olan sənədlərin dövriyyəsi” barədə layihəni müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət üzrə daxil olan sənədlərin dövriyyəsi” barədə layihə bəyənilsin (əlavə olunur).
2. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin Haqsız rəqabətə qarşı mübarizə şöbəsinə (R.Cəfərli), Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) və Etika, mübahisələr və intizam Komissiyasına (K.Hüseynov) tapşırılsın ki, bu layihədən irəli gələn vəzifələrin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.
3. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç gün müddətində bu qərarın və “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət üzrə daxil olan sənədlərin dövriyyəsi” barədə layihənin mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**